# Pakistanın istiqlal yolu və Azərbaycanla tarixi qardaşlığın konturları



**14 avqust Pakistan İslam Respublikasının milli bayramıdır. Dövlətin yaranması Cənubi Asiyanın şimal-qərb və şərq regionlarında yaşayan müsəlmanlar üçün müstəqil vətən yaratmağı hədəfləyən Pakistan Hərəkatının pik nöqtəsi idi.**

Pakistan dövlətinin yaranması Hind yarımadasının tarixi ilə sıx bağlıdır. İslam dininin yarımadaya gəlişi sufi təbliğatçılar və müsəlman tacirlər vasitəsilə başlamış, 712-714-cü illərdə Əməvi sərkərdəsi Məhəmməd bin Qasimin Sind bölgəsini fəth etməsi ilə siyasi prosesə çevrilmişdir. Növbəti əsrlərdə Qəznəvilər, Qurlular, Dehli Sultanlığı və Böyük Moğol İmperiyası kimi müsəlman-türk sülalələri regionda hakimiyyətdə olmuşlar. Lakin zamanla, xüsusilə Britaniya müstəmləkəçiliyi dövründə Hindistanın çoxdinli və çoxmillətli cəmiyyətində hindu və müsəlman icmaları arasında gərginliklər artmağa başladı. XX əsrin əvvəllərində Ümumhindistan Müsəlman Liqası Məhəmməd Əli Cinnahın rəhbərliyi ilə Hindistan müsəlmanlarının ayrı millət olduğunu və onların siyasi, iqtisadi, mədəni hüquqlarının yalnız müstəqil müsəlman dövləti çərçivəsində təminini müdafiə edən "İki millət" nəzəriyyəsini irəli sürdü. Həmin nəzəriyyə Hindistanın dini əsaslarla bölünməsinin ideoloji təməlini təşkil etdi. Bu istiqamətdə atılan ən mühüm addımlardan biri 23 mart 1940-cı ildə Lahor şəhərində Müsəlman Liqasının illik qurultayında qəbul edilən Lahor Qətnaməsi oldu. Qətnamə Britaniya Hindistanının şimal-qərb və şimal-şərq hissələrində müsəlmanların çoxluq təşkil etdiyi ərazilərdən ibarət müstəqil dövlətlərin yaradılmasını tələb edirdi. Məhz bu tarixi hadisənin şərəfinə Pakistanda hər il 23 mart Pakistan Günü kimi qeyd olunur və həmin gün ölkənin ilk konstitusiyasının 1956-cı ildə qəbul edilməsi ilə də əlamətdardır.

İkinci Dünya müharibəsindən sonra zəifləmiş Britaniya imperiyası Hindistandan çıxmağa qərar verdi. Hindistanın sonuncu vitse-kralı Lord Mountbatten tərəfindən təklif olunan və həm Hindistan Milli Konqresi, həm də Müsəlman Liqası tərəfindən qəbul edilən plana əsasən Britaniya Hindistanı dini mənsubiyyətə görə iki müstəqil ölkəyə bölündü. Beləliklə, 1947-ci il avqustun 14-də Pakistan müstəqil dövlət elan edildi. Təxminən 10 milyondan 20 milyona qədər insan yeni çəkilmiş Radklif xəttini keçərək doğma yurdlarını tərk etmək məcburiyyətində qaldı. Müsəlmanlar Pakistana, hindular və sikhilər isə Hindistana köç etdilər. Təəssüf ki, proses genişmiqyaslı zorakılıq və toqquşmalarla müşayiət olundu, nəticədə yüz minlərlə, bəzi mənbələrə görə isə milyondan çox insan həyatını itirdi. Bölünmənin nəticələri Hindistan subkontinentinin tarixində dərin və silinməz izlər qoydu. Yeni yaranmış Pakistan dövlətinin qurucusu və "millətin atası" hesab edilən Məhəmməd Əli Cinnah ölkənin ilk general-qubernatoru oldu. Onun rəhbərliyi altında Pakistan Müsəlman Liqası yeni dövlətin ilk Müəssislər Məclisində mütləq üstünlük təşkil etdi.

İstiqlaliyyət Günü Pakistanın hər yerində böyük təntənə ilə keçirilir. Əsas mərasim paytaxt İslamabadda baş tutur, Prezident sarayı və Parlament binası üzərində dövlət bayrağı qaldırılır, dövlət himni səsləndirilir. Dövlət başçısı və hökumət rəhbərləri televiziya vasitəsilə xalqa müraciət edirlər. Ölkənin bütün şəhər və kəndlərində bayraqqaldırma mərasimləri, hərbi paradlar, mədəni tədbirlər və vətənpərvərlik mahnılarının səsləndiyi şənliklər təşkil olunur.

Pakistanın dövlət müstəqilliyini qazanması ona beynəlxalq münasibətlər sistemində fəal iştirakçı kimi çıxış etmək imkanı yaratdı. Cənubi Asiyada mühüm geosiyasi mövqeyə malik, nüvə dövləti və İslam Əməkdaşlıq Təşkilatının aparıcı üzvlərindən olan Pakistan ilə Azərbaycan arasında münasibətlər xüsusi strateji tərəfdaşlıq, qardaşlıq və qarşılıqlı etimad səviyyəsi ilə seçilir. İki ölkə arasındakı əlaqələr ortaq tarixi, dini və mədəni köklərə əsaslanır və beynəlxalq aləmdə bir-birinə göstərilən qeyd-şərtsiz dəstəklə möhkəmlənir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 1991-ci il dekabrın 12-də Pakistan Türkiyə və Rumıniyadan sonra Azərbaycanın müstəqilliyini tanıyan üçüncü ölkə olaraq tarixi addım atmışdır. İki ölkə arasında rəsmi diplomatik əlaqələr 1992-ci il iyunun 9-da qurulmuşdur. Pakistan, Azərbaycanda səfirliyini açan ilk ölkələrdəndir. Azərbaycan Respublikasının İslamabaddakı daimi nümayəndəliyi isə 1997-ci ilin avqustunda açılmışdır.

Azərbaycan-Pakistan münasibətlərinin təməli Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti dövründə qoyulmuşdur. 1994-cü ilin dekabrında Kasablankada Heydər Əliyevin Pakistanın o vaxtkı baş naziri Benazir Bhutto ilə görüşü təməlin başlanğıcı oldu. 1995-ci ilin oktyabrında Pakistan Prezidenti Sərdar Faruk Əhməd Xan Leqarinin Azərbaycana rəsmi səfəri baş tutdu. Səfər zamanı iki ölkə arasında bir sıra mühüm sənədlər, o cümlədən "Azərbaycan Respublikası və Pakistan İslam Respublikası arasında Əməkdaşlıq haqqında Müqavilə" və hökumətlərarası birgə komissiyanın yaradılması haqqında protokol imzalandı. 1996-cı ilin aprelində isə Azərbaycan Prezidenti Heydər Əliyev Pakistana rəsmi səfər etdi və səfər zamanı imzalanan doqquz sənəd əlaqələrin inkişafına güclü təkan verdi. Hər iki lider keçmiş Ermənistan-Azərbaycan münaqişəsi və Kəşmir problemlərində dövlətlərin bir-birini dəstəklədiyini bəyan etdilər.

Pakistanın Azərbaycana siyasi və diplomatik dəstəyi müstəsna xarakter daşıyır. Pakistan beynəlxalq miqyasda Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini hər zaman ardıcıl və birmənalı şəkildə dəstəkləyib. Ən əhəmiyyətli məqam odur ki, Pakistan Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinə etiraz olaraq, bu günə qədər Ermənistan ilə diplomatik münasibətlər qurmayıb və onu müstəqil dövlət kimi tanımayıb. Bu prinsipial mövqe Pakistanın Azərbaycanla qardaşlıq münasibətlərinə sadiqliyinin bariz nümunəsidir. 1993-cü il aprelin 30-da Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası-



nın Kəlbəcərin işğalı ilə bağlı 822 saylı qətnaməsinin qəbul edildiyi iclasa məhz Pakistanın sədrlik etməsi də təsadüfi deyildir. Pakistan Senatının Xarici Əlaqələr Komitəsi Xocalı faciəsini soyqırımı kimi tanımışdır ki, bu da Azərbaycana göstərilən siyasi dəstəyin daha bir təzahürüdür. Azərbaycan da öz növbəsində Cammu və Kəşmir məsələsində hər zaman Pakistanın beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan ədalətli mövqeyini dəstəkləmişdir. Hər iki ölkə BMT, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) kimi beynəlxalq və regional platformalarda birgə fəaliyyət göstərərək öz mövqelərini əlaqələndirir və bir-birinə dəstək olurlar.

İki qardaş ölkə arasında hərbi və müdafiə sənayesi sahəsində əməkdaşlıq strateji tərəfdaşlığın mühüm tərkib hissəsidir. Müdafiə və hərbi sahədə əməkdaşlıq haqqında saziş 2002-ci ildə imzalanmış və bu sənəd hərbi-siyasi tərəfdaşlığın prioritet istiqamətlərini müəyyən etmişdir. Həmin vaxtdan etibarən əlaqələr daha da genişlənmişdir. İki ölkənin müdafiə nazirlikləri və silahlı qüvvələri arasında mütəmadi olaraq yüksək səviyyəli görüşlər keçirilir. Azərbaycan, Pakistan və Türkiyənin iştirakı ilə keçirilən "Üç qardaş" birgə hərbi təlimlər ordular arasında təcrübə mübadiləsini artırır və hərbi qulluqçuların peşəkarlığının yüksəldilməsinə xidmət edir. Azərbaycan Ordusunun hərbi qulluqçuları Pakistanın müxtəlif hərbi təhsil müəssisələrində, o cümlədən "kiçik zabitlərin qərargah kursu", "zabitlərin təkmil kəşfiyyat kursu" və "anti-terror təlim kursu" kimi proqramlarda iştirak edirlər. Hər il növbəli şəkildə Azərbaycanda və Pakistanda keçirilən Azərbaycan-Pakistan İşçi Qrupunun görüşlərində ikitərəfli hərbi əməkdaşlığın cari vəziyyəti və perspektivləri müzakirə olunur və yekunda əməkdaşlıq planları imzalanır.

Siyasi və hərbi sahələrdəki yüksək səviyyəli əməkdaşlıqla yanaşı, Azərbaycan və Pakistan iqtisadi-ticari əlaqələrinin genişləndirilməsində də maraqlıdırlar. İki ölkə arasında ticarət dövriyyəsinin artırılması üçün böyük potensial mövcuddur və hökumətlər bu potensialı reallaşdırmaq üçün birgə səylər göstərirlər. İqtisadiyyat, ticarət, energetika, texnologiya, kənd təsərrüfatı, turizm və nəqliyyat kimi sahələrdə əməkdaşlıq perspektivləri genişdir. Qədim İpək Yolunun bərpası və müasir nəqliyyat dəhlizlərinin inkişafı mal mübadiləsini və tranzit daşımalarını artırmaq üçün əlverişli şərait yaradır. Azərbaycanın 2023-cü ildə Pakistanın da üzv olduğu İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) qoşulması ticarət, investisiya və iqtisadi əməkdaşlıq üçün yeni imkanlar açmışdır. İki ölkənin xarici işlər nazirləri arasında keçirilən mütəmadi görüşlərdə və telefon danışıqlarında ticarət və investisiya sahəsində əməkdaşlığın gücləndirilməsi məsələləri daim diqqət mərkəzində saxlanılır. Həmçinin, Bakı ilə İslamabad, Karaçi və Lahor arasında birbaşa aviareyslərin açılması ilə bağlı müzakirələr aparılır ki, bu da həm ticarətin, həm də insanlar arasında əlaqələrin və turizmin inkişafına mühüm təkan verəcək.

Azərbaycan və Pakistan xalqlarını bir-birinə bağlayan tellər təkcə siyasi və iqtisadi maraqlarla məhdudlaşmır; bu əlaqələrin kökündə dərin tarixi, mədəni və mənəvi yaxınlıq dayanır. Hər iki xalqın İslam dininə mənsub olması, ortaq dəyərləri və adət-ənənələri mədəni əməkdaşlıq üçün möhkəm zəmin yaradır. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Pakistan otağı"nın yaradılması və Muslim İnstitutu ilə əməkdaşlıq müqaviləsinin imzalanması elmi əlaqələrin inkişafının göstəricisidir. İki ölkənin alimləri və ədəbiyyatşünasları birgə konfranslar və tədbirlər keçirirlər. Cəlil Məmmədquluzadənin əsərlərinin urdu dilinə tərcümə edilərək Pakistanda nəşr olunması Azərbaycan ədəbiyyatının dost ölkədə tanıdılması istiqamətində atılmış mühüm addımdır. Azərbaycanın Pakistandakı səfirliyi iki ölkə gəncləri arasında dostluq əlaqələrini möhkəmləndirmək məqsədilə müxtəlif müsabiqələr və tədbirlər təşkil edir.

Pakistan İstiqlaliyyət Günü təkcə Pakistan xalqı deyil, həmçinin onun dostları və müttəfiqləri üçün də əhəmiyyətli gündür. Müstəqillik əldə etdikdən sonra Pakistan beynəlxalq aləmdə özünəməxsus yer tutmuş və Azərbaycan kimi qardaş ölkələr üçün etibarlı tərəfdaşa çevrilmişdir. Azərbaycan-Pakistan arasındakı münasibətləri strateji tərəfdaşlığın, sarsılmaz qardaşlığın, qarşılıqlı hörmətin və etimadın nümunəsidir. İki ölkənin siyasi, hərbi, iqtisadi və mədəni sahələrdə dərinləşən əməkdaşlığı, beynəlxalq məsələlərdə bir-birinə davamlı dəstəyi münasibətlərin nə qədər möhkəm təməllər üzərində qurulduğunu göstərir. Gələcəkdə əlaqələrin bütün istiqamətlər üzrə daha da inkişafına və hər iki qardaş xalqın rifahına xidmət edəcəyinə əminlik yaradır.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**

Respublika .- 2025.- 14 avqust (№ 169).- S.6.